**AZƏRBAYCAN RESPUBLİKASININ ELM VƏ TƏHSİL NAZİRLİYİNƏ**

BAKI, YASAMAL, ŞƏRİFZADƏ K., EV 1 ünvanında qeydiyyatda olan PANALİYEV ƏLİHEYDƏR VƏLİƏHƏD OĞLU (ŞV:AZE 15640311, Səyyar-Asan4-01.05.2015, FİN:3ANF5XD, d/t:24.01.1965) tərəfindən

# ƏRİZƏ

**(2472380006188)**

Bildirirəm ki, Nazirliyə qrif almaq üçün təqdim etdiyim 060405 "Sənayenin təşkili və idarə edilməsi"ixtisası üzrə magistr səviyəsi üçün təstiq olunan "Loğistika"istisas (MİFÜ-2701,məcburi) fənninin proqramının əl yazmasında başqa əsərlərdən və mənbələrdən qeyri-qanuni istifadə hallarına yol verilməmişdir. Bunun əksi müəyyən olunduğu təqdirdə, verilmiş qrifin və bundan irəli gələn digər hüquq və əldə edilən üstünlüklərin ləğvinə səbəb ola biləcəyindən xəbərdaram.

***Qeyd:*** *Azərbaycan Respublikası "Notariat haqqında" Qanunun 67-ci maddəsinə əsasən notarius və ya müvafiq icra hakimiyyəti orqanı sənəddə imzanın həqiqiliyini təsdiq edərkən sənəddə şərh olunmuş faktları deyil, yalnız müəyyən şəxsin etdiyi imzanın həqiqiliyini təsdiq edir.*




**PANALİYEV ƏLİHEYDƏR VƏLİƏHƏD OĞLU**

Panaliyev PANALİYEV ƏLİHEYDƏR VƏLİƏHƏD OĞLU (tel:(050) 356-64-90)

**iyirmi altı aprel iki min iyirmi dördüncü il**

Mən, **Bakı şəhəri 53 saylı notariat ofisinin xüsusi notariusu Ələkbərova Səma Rafiq qızı** PANALİYEV ƏLİHEYDƏR VƏLİƏHƏD OĞLUNUN mənim iştirakımla etdiyi imzasının həqiqiliyini təsdiq edirəm. İmza edənin şəxsiyyəti müəyyən edilib.

Reyestrdə 8İ-6188 № ilə qeyd edilib, informasiya sisteminə daxil edilib.
6.00 manat haqq tutulub

M.Y.

Notariat hərəkətini aparmağa müvəkkil edilmiş şəxs ______ (imza)

çap tarixi: 26.04.2024 15:09
2472380006188

*Sənədin həqiqiliyini QR kod vasitəsilə yoxlamağınız tövsiyyə edilir.*
*Рекомендуется проверить подлинность документа с помощью QR-кода.*
*It is recommended to check the authenticity of the document using a QR-code.*

www.notariat.az

Mit CamScanner gescannt

Azərbaycan Texniki Universitetinin
Elmi-Metodiki Şurasının sədri
prof. N.A. Yusifbəyli
"Beynəlxalq ticarət, logistika və
marketinq" kafedrasinin müdiri
vəzifəsini müvəqqəti icra edən
dos. L. T. Neymətova tərəfindən

TƏQDİMAT

Kafedranın əməkdaşı i.f.d., dos. Panaliyev Əliheydər Vəliəhəd oglu tərəfindən

1. Azerbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin 30.09.2016-ci il tarixli 640 saylı əmri ilə təsdiq edilmiş 060405- "Sənayenin təşkili və idarə edilməsi" ixtisası üzrə magistr səviyyəsi üçün təsdiq olunmuş dövlət standartı əsasında hazırlanan tədris planına seçmə statusunda 180 saatlıq və 6 kredit miqdarı ilə daxil edilmiş MFİS -2713 "Nəqliyyatda idarəetmə" fənni üzrə azərbaycan dilində və 12 səhifə həcmində "Nəqliyyatda idarəetmə" adlı fənnin proqramı tərtib edilmişdir.

2. Azerbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin 30.09.2016-ci il tarixli 640 saylı əmri ilə təsdiq edilmiş 060405- "Sənayenin təşkili və idarə edilməsi" ixtisası üzrə magistr səviyyəsi üçün təsdiq olunmuş dövlət standartı əsasında hazırlanan tədris planına seçmə statusunda 180 saatlıq və 6 kredit miqdarı ilə daxil edilmiş MİFS-4212 "Rabitə xidməti üzrə biznesin idarə edilməsi" fənni üzrə azərbaycan dilində və 10 səhifə həcmində "Rabitə xidməti üzrə biznesin idarə edilməsi" adlı fənnin proqramı tərtib edilmişdir.

3. Azerbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin 30.09.2016-ci il tarixli 640 saylı əmri ilə təsdiq edilmiş 060405- "Sənayenin təşkili və idarə edilməsi" ixtisası üzrə magistr səviyyəsi üçün təsdiq olunmuş dövlət standartı əsasında hazırlanan tədris planına seçmə statusunda 180 saatlıq və 6 kredit miqdarı ilə daxil edilmiş MİFS-2731 "Firma daxili planlaşdırma" ixtisaslaşma fənni üzrə azərbaycan dilində və 11 səhifə həcmində "Firma daxili planlaşdırma" adlı fənnin proqramı tərtib edilmişdir.

4. Azerbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin 30.09.2016-ci il tarixli 640 saylı əmri ilə təsdiq edilmiş 060405- "Sənayenin təşkili və idarə edilməsi" ixtisası üzrə magistr səviyyəsi üçün təsdiq olunmuş dövlət standartı əsasında hazırlanan tədris

Mit CamScanner gescannt

planına seçmə statusunda 180 saatlıq və 6 kredit miqdarı ilə daxil edilmiş MİFS-2722 "Nəqliyyatda investisiya layihələrinin qiymətləndirilməsi" fənni üzrə azərbaycan dilində və 14 səhifə həcmində "Nəqliyyatda investisiya layihələrinin qiymətləndirilməsi" adlı fənnin proqramı tərtib edilmişdir.

5. Azerbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin 30.09.2016-ci il tarixli 640 saylı əmri ilə təsdiq edilmiş 060405- "Sənayenin təşkili və idarə edilməsi", ixtisası üzrə magistr səviyyəsi üçün təsdiq olunmuş dövlət standartı əsasında hazırlanan tədris planına məcburi statusunda 180 saatlıq və 6 kredit miqdarı ilə daxil edilmiş MİFÜ-2701 "Logistika" ixtisas fənni üzrə azərbaycan dilində və 12 səhifə həcmində "Logistika" adlı fənnin proqramı tərtib edilmişdir.

Müəllif işin hazırlanmasında özündən öncə yazılmış əsərlərdən istifadə etmişdir.

Əsərlərə mütləq mənbə kimi istinad edilmişdir.

İstinadlardan müzakirə və təhlil məqsədilə yararlanılmışdir.

İstifadə edilmiş mənbələr işin elmi-texniki tərəfinin aktual olmasını isbat edir.

Yuxarıda qeyd olunan vəsaitlərinin ədəbiyyatlardan və digər informasiya mənbələrindən zəruri, etik va qanuni əsaslarla istifadə olunaraq hazırlanmasını təsdiq edir.

Kafedra müdiri vəzifəsini
müvəqqəti icra edən:

Tarix:

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN TEXNİKİ UNİVERSİTETİ
SƏNƏDLƏR ÜÇÜN

Mit CamScanner gescannt

**AZƏRBAYCAN RESPUBLİKASININ ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN TEXNİKİ UNIVERSİTETİ**

**TƏSDİQ EDİRƏM**

**AzTU-nun tədris işləri üzrə prorektoru**

**____________________ N.A. Yusifbəyli**

**«_____»________________ 2023-ci il**

# LOGİSTİKA

**fənninin**
**PROQRAMI**
**(mağistr səviyyəsi üçün)**

| | |
|---|---|
| **Fakültə:** | **İqtisadiyyat və idarəetmə** |
| **İxtisas:** | **İxtisas: 060405 - "Sənayenin təşkili və idarə edilməsi"** |
| **İxtisaslaşma:** | **İstehsalat və xidmət sahələrinin iqtisadiyyatı və idarə edilməsi** |
| **İxtisas kafedrası:** | **Beynəlxalq ticarət, logistika və marketinq** |
| **Fənni tədris edən kafedra:** | **Beynəlxalq ticarət, logistika və marketinq** |

| | |
|---|---|
| **Kurs:** | 1 |
| **Semestr:** | 1 |
| **Kreditlərin sayı:** | 6 |
| **Fənnə ayrılan ümumi saatlar:** | 180 |
| **Auditoriya saatlarının cəmi:** | 30 |
| **o cümlədən:** | |
| **Mühazirələr:** | 30 saat |
| **Laboratoriya:** | |
| **Seminar, praktiki məşğələ:** | |
| **Tələbənin auditoriyadankənar işi:** | 150 saat |

**BAKI-2023**



Mit CamScanner gescannt

**MİFÜ-2701** "Logistika" fənninin proqramı Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 13.08.2020-ci il tarixli 370 saylı Qərarı ilə təsdiq edilmiş **060405 - "Sənayenin təşkili və idarə edilməsi"** ixtisasının Ali Təhsil Proqramının və "_10__" sentyabr 2020-ci il tarixində AzTU-nun Elmi Şurası tərəfindən təsdiq edilmiş **060405 - "Sənayenin təşkili və idarə edilməsi"** ixtisasının tədris planı əsasında tərtib olunmuşdur.

**Fənn proqramı tərtib etdi:**
Azərbaycan Texniki Universitetin
"Beynəlxalq ticarət, logistika və marketinq"
kafedrasının dosenti,
iqtisad elmləri namizədi ________________**Panaliyev Əliheydər Vəliəhəd oğlu**

**Rəyçilər:**

1. Azərbaycan Memarlıq və İnşaat Universitetinin "İqtisadi nəzəriyyə və marketinq" kafedrasının müdiri, iqtisad üzrə fəlsəfə doktoru ___________________________**Ağayev Asəf Mirzə oğlu**

2. Azərbaycan Texniki Universitetin "Beynəlxalq ticarət, logistika və marketinq" kafedrasının müdiri, iqtisad elmləri doktoru ____________________**Quliyev Rüfət Atakişi oğlu**

Fənn proqramı "Beynəlxal ticarət, logistika və marketinq" kafedrasının iclasında müzakirə olunmuş və təsdiq edilməsi üçün tövsiyə edilmişdir:
(« 03_» iyun 2022-ciil tarixli iclas " 9 " №-li protokol)

**Kafedra müdiri, i.e.d., professor** _______________________**Quliyev R. A.**

Fənn proqramı "İqtisadiyyat və idarəetmə" fakültəsinin Elmi Şurasının iclasında müzakirə olunmuş,bəyənilmiş və təsdiqə tövsiyə edilmişdir:
( "_25 _"__iyun___2023-ci il tarixli iclas "_10_" №-li protokol)

**Dekan i.ü.f.d, dos.** ______________________ **Musayeva F. Q**



Mit CamScanner gescannt

**Mündəricat**

Giriş 4
1.Ümumi qaydalar 5
1.1.Fənnin tədrisinin əsas məqsədi 5
1.2. Fənnin tədrisinin əsas vəzifəsi 5
1.3. Fənn üzrə bilik və bacarıqlara olan tələblər 5
1.4. Fənnin digər fənlərlə əlaqəsi 6
2. Fənnin məzmunu 7
2.1. Fənn üzrə saatların bölüşdürülməsi 7
2.2. Fənnin mövzular üzrə planı 8
2.3. Fənnin dərs növləri üzrə paylanması 8
2.3.1. Mühazirə dərslərinin mövzuları və həcmi 8
2.3.2. Məşğələ dərslərinin mövzuları və həcmi 10
2.3.3.Tələbənin sərbəst işin mövzuları və həcmi 10
2.3.4. Sərbəst işlərin nümunəvi mövzuları 10
3.Fənn üzrə tədris-metodiki materiallar 10
3.1. Əyani və digər tədris-metodiki vəsaitlərin, metodiki materialların siyahısı 11
3.2.Tövsiyə olunan ədəbiyyat 11
3.2.1.Əsas ədəbiyyat 11
3.2.2. Əlavə ədəbiyyat 12



Mit CamScanner gescannt

## Giriş

Müasir dövrdə logistika firmaların rəqabət üstünlüklərinin yaradılmasında əsas alət olmaqla iqtisadiyyatın müxtəlif sahələri ilə əlaqəlidir və yüksək keyfiyyətli logistika xidmətlərinin göstərilməsi sayəsində iqtisadi sistemin səmərəli fəaliyyətinə nail olmaq olur. Logistika xərclərə qənaət etmək və xidmət səviyyəsini yaxşılaşdırmaq üçün material axınlarının fiziki paylanmasının bütün proseslərinin sistemli koordinasiyası deməkdir. Logistika xərclərinin azalması, satışın artması ilə eyni səmərə verir. Logistika bilikləri gələcək mütəxəssislərə iqtisadiyyatın istənilən sahəsində müəssisəni səmərəli idarə etməyə imkan verəcəkdir.

Logistikanın tədqiqat obyekti bütün hərəkət yolu boyunca - ilkin xammal mənbəyindən son istehlakçıya qədər maddi, maliyyə və informasiya axınlarıdır.

Logistika material axınlarının "başdan-başa" idarə edilməsi sisteminin yaradılmasını tələb edir. Logistika bütövlükdə təsərrüfat fəaliyyətinin inkişafına təsir edən müsbət amil olmaqla, elmi-texniki tərəqqinin inkişafında mühüm istiqamətlərdən biridir. Logistika iqtisadiyyatı onun təzahürünün bir çox formalarının məcmusu ilə ifadə olunur. Belə ki, arzu olunan məhsulların tələb olunan miqdarda, tələb olunan keyfiyyətlərlə, sərfəli qiymətə, vaxtında və müəyyən edilmiş yerə, istehlakçıya çatdırılması prosesləri logistik prinsiplər və metodlarla idarə olunur.

Logistika müəssisə və təşkilatların sənaye, təsərrüfat və təsərrüfat fəaliyyətinin çoxsaylı funksional sahələrini əhatə edir. Onun əhatə dairəsinə aşağıdakılar daxildir: maddi-texniki təchizat (xammal, əsas və köməkçi materialların, yarımfabrikatların, komponentlərin alınması); istehsal prosesinin texnoloji əməliyyatları üçün material ehtiyatlarının, detalların, hissələrin, qovşaqların və birləşmələrin hərəkətinin idarə edilməsi; anbar təsərrüfatı (material ehtiyatlarının qəbulu, nəzarəti, saxlanması və istehlakçılara buraxılmasının təşkili); nəqliyyat təsərrüfatı (nəqliyyat növünün optimal variantlarının seçilməsi, material ehtiyatlarının istehlakçılara çatdırılması, nəqliyyat vasitələrinin istismarı, onların hərəkəti üçün optimal marşrutların işlənib hazırlanması); ehtiyyatların idarə edilməsi (maddi ehtiyatların saxlanması, saxlanılan ehtiyatların optimal həcmlərinin müəyyən edilməsi, maddi ehtiyatlarının səviyyəsinin proqnozlaşdırılması); hazır məhsulların birbaşa və ya dolayı paylama kanalları vasitəsilə satışı prosesinin təşkili və idarə edilməsi.

Logistikanın fəaliyyətinə sistemli yanaşma logistika prinsipləri və qaydaları əsasında material və digər resursların hərəkəti prosesinin çox meyarlı optimallaşdırılmasını nəzərdə tutur.

Material axınlarının ilkin mənbədən son istehlakçıya kimi hərəkətinin səmərəli şəkildə təşkil etmək və idarə etmək şərtlərinin öyrənilməsi loğistika kimi formalaşmış bir elmin əsasını təşkil edir.

"Logistika" fənni **060405 - "Sənayenin təşkili və idarə edilməsi"** ixtisası üzrə magistratura pilləsində təhsil alan tələbələr üçün tədris olunan ixtisaslaşmanın əsas fənlərinə aid edilir.

"Logistika" fənnində logistikada istifadə olunan əsas anlayışlara, logistikanın prinsiplərinə, idarəetməyə logistik yanaşmanın xüsusiyyətlərinə, logistikanın məqsədləri, vəzifələri, funksiyaları və üsullarına,logistika zəncirləri və sxemlərinə, müasir anbar texnologiyalarına, logistik proseslərə, logistika sahəsində nəzarət və idarəetməyə, mikro və makro səviyyələrdə təchizat, istehsal və marketinq proseslərində əsas logistika axınlarının idarəetmə sistemlərinə xüsusi diqqət yetirilir.

"Logistika" fənni, logistikanın konsepsiya və prinsiplərinin öyrənilməsi, logistika sistemlərinin və logistika zəncirlərinin növlərinin öyrənilməsi, logistika zəncirinin komponentlərinin öyrənilməsi, müqayisəli məsrəf hesablamaları və onların optimallaşdırılması yollarını, inteqrasiya olunmuş logistik mərkəzlərin fəaliyyətinin təcrübəsi və üstünlükləri, logistik xidmət sisteminin formalaşdırılması fəaliyyətlərinə yönəlmiş



Mit CamScanner gescannt

metodiki, təşkilati və texniki tədbirləri özündə əks edir. Bu baxımdan "Logistika" fənnin tədrisi aktualdır.

Fənn proqramı Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 24.12.2013-cü il tarixli 348 saylı Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın, Azərbaycan Respublikası Təhsil Nazirliyinin 13.08.2020-ci il tarixli 370 saylı Qərarı ilə təsdiq edilmiş **060405 - "Sənayenin təşkili və idarə edilməsi"** ixtisasının Ali Təhsil Proqramının və Tədris planının tələblərinə uyğun işlənib hazırlanmışdır. Fənn proqramı Azərbaycan Texniki Universitetində **060405 - "Sənayenin təşkili və idarə edilməsi"** ixtisası üzrə magistr hazırlığı üçün tərtib olunmuşdur. Proqrama fənnin tədrisinin mərhələlər üzrə məzmunu və həcmi daxil edilmişdir.

Fənn proqramı əsasında işçi proqram (sillabus) hazırlanır.

Fənn proqramı müəllim və tələbələrin istifadəsi üçün nəzərdə tutulmuşdur.

## 1. Ümumi qaydalar

### 1.1.Fənnin tədrisinin məqsədi

"Logistika" fənninin məqsədi 060405 - "Sənayenin təşkili və idarə edilməsi" ixtisası üzrə mağistr pilləsində təhsilalanlarda rəqabətqabiliyyətliliyə, resursların məhdudluğuna, qloballaşma meyllərinə sərtləşən tələblər şəraitində axın proseslərinin optimallaşdırılması əsasında material, informasiya və insan resurslarının idarə edilməsinin, müasir təşkili metodlarının mahiyyətini öyrətmək, bu barədə peşəkar, sistemli bilik və bacarıqlar aşılamaq, formalaşdırmaq, inkişaf etdirmək və möhkəmləndirməkdən ibarətdir.

### 1.2.Fənnin tədrisinin əsas vəzifəsi

Fənnin tədrisinin əsas vəzifəsi 060405 - "Sənayenin təşkili və idarə edilməsi" - ixtisası üzrə təhsil alan mağistrlərdə logistikanın konseptual aparatının mənimsənilməsi, logistikanın konsepsiya və prinsiplərinin öyrənilməsi,logistika sistemlərinin və logistika zəncirlərinin növlərinin öyrənilməsi, logistika zəncirinin komponentlərinin öyrənilməsi, (xüsusən tədarük logistikası və ehtiyyatların idarə edilməsi, istehsal logistikası, anbar logistikası, paylama logistikası, nəqliyyat logistikası, informasiya logistikası və s.), müqayisəli məsrəf hesablamaları və onların optimallaşdırılması yolları bacarıqlarına yiyələnmək, inteqrasiya olunmuş logistik mərkəzlərin fəaliyyətinin təcrübəsi və üstünlükləri, logistik xidmət sistemi barədə davamlı biliklərin formalaşdırılması üzrə lazım olan nəzəri, təcrübi bilik və bacarıqların aşılanmasından ibarətdir.

### 1.3 Fənn üzrə bilik və bacarıqlara olan tələblər

Fənnin öyrənilən materialın mənimsənilməsi nəticəsində tələbələr aşağıdakıları **bilməlidir:**

- logistikada istifadə olunan əsas anlayışları və tərifləri;
- logistikanın prinsiplərini, idarəetməyə logistik yanaşmanın xüsusiyyətlərini;
- -logistikanın məqsədləri, vəzifələri, funksiyaları və üsullarını;
- logistika zəncirləri və sxemləri, müasir anbar texnologiyalarını, logistik prosesləri;
- logistika sahəsində nəzarət və idarəetməni;
- mikro və makro səviyyələrdə təchizat, istehsal və marketinq proseslərində əsas logistika axınlarının idarəetmə sistemlərini;
- inkişaf etmiş ölkələrdə logistika texnologiyalarının inkişaf tendensiyalarını;
- ölkə iqtisadiyyatında logistikadan istifadənin problemləri və perspektivlərini;



Mit CamScanner gescannt

- logistika əsasında inteqrasiya edilmiş strukturların idarə edilməsinin imkanları və səmərəliliyi;
- obyektlərin maddi-texniki inteqrasiyası üsullarını;
- logistika idarəetməsinin iqtisadi - riyazi üsullarını və modellərini;
- -əsas logistika informasiya texnologiyaları və sistemləri;
- logistik layihələrin səmərəliliyinin qiymətləndirilməsi üsullarını;
- logistik xidmətlərin yerinə yetirilməsi üçün autsorsinqdən istifadə etmək imkanlarını;

**bacarmalıdır:**

- material axınlarının rasional təşkilini təmin edən logistika zəncirlərini və sxemlərini tətbiq etmək;
- təşkilatın logistika proseslərini idarə etmək;
- təchizat zəncirinin idarə edilməsinin məqsəd, funksiya və vəzifələrini müəyyən etmək;
- təşkilatın xarici və daxili mühitini təhlil etmək;

onun maddi, informasiya, maliyyə və (və ya) insan axını ilə bağlı əsas problemlərini müəyyən etmək;

- marketinq tədqiqatları nəticəsində əldə edilmiş məlumatlardan düzgün istifadə etmək;
- logistikanın anlayış və prinsiplərini, xüsusiyyətlərini tətbiq etmək

logistika axınlarının idarə olunmasına yanaşma;

- təchizat və paylama kanallarını, vasitəçilərdən istifadə variantlarını seçmək, satınalma variantları və ya öz istehsalı arasında seçim etmək;
- xərcləri hesablamaq və logistik həllər üçün ən rasional variantları seçmək;
- təchizat zəncirinin iştirakçıları arasında münaqişələri həll etmək;
- təchizat zəncirində trafikin optimallaşdırılmasından istifadə etməklə resurslardan istifadənin səmərəliliyini artırmaq üçün tədbirlər hazırlamaq;
- -ehtiyyatların idarə edilməsinin əsas üsullarından, səmərəli anbar saxlanması və daşımaların əsaslarından istifadə etmək;
- satınalma, istehsal və paylama üçün müxtəlif logistik sistemlərdən istifadənin səmərəliliyini qiymətləndirmək;
- logistika informasiya idarəetmə sistemlərinin formalaşdırılmasında mövcud proqram informasiya məhsullarından istifadə etmək;
- müxtəlif nəqliyyat növləri ilə təchizat və marketinq üçün ən səmərəli variantları seçmək;
- riskləri, gəlirliliyi və qəbul edilən qərarların səmərəliliyini qiymətləndirmək;

## 1.4. Fənnin digər fənlərlə əlaqəsi

“Logistika” fənninin bir çox iqtisadi, riyazi və digər elmlərlə birgə təsir və qarşılıqlı təsir zonaları (sahələri) var. Eyni zamanda, onların heç biri ilə eyniləşdirilmir və əlaqəli elmlərin hər biri ilə qarşılıqlı əlaqəsinin hər hansı ümumi sahəsindən daha genişdir. Sxematik olaraq, bu qarşılıqlı əlaqə mərkəzi logistika, "ləçəklər" isə onunla əlaqəli elmlər olan "çiçək" kimi təqdim edilə bilər.

Logistika maliyyə elmləri ilə (mühasibat uçotu, maliyyə-iqtisadi təhlil, nəzarət), logistika maliyyə axınları və əlaqəli informasiya axınları (nəzarət sferası) ilə qarşılıqlı əlaqədə olur. Eyni zamanda logistika insan resurslarının idarə edilməsi elmləri ilə (əmək resurslarının hərəkəti haqqında), nəqliyyatın iqtisadiyyatı ilə (nəqliyyat vasitələrinin hərəkəti və onların əlaqələndirilməsi haqqında) qarşılıqlı əlaqəli öyrənilir. Riyaziyyat, riyazi modelləşdirmə, statistik metodlar - logistikanın metodoloji və metodoloji əsasını, əsasən onun riyazi aparatını təmsil edir. Şəkil 1.-də Logistikanın digərelmlərlə qarşılıqlı əlaqəsi təsvir edilmişdir.



Mit CamScanner gescannt




**Şəkil 1. Logistikanın digər elmlərlə qarşılıqlı əlaqəsi.**

Logistikanın bu gün mövcud olan çoxsaylı elmlərin qarşılıqlı əlaqəsinin vəhdəti kimi hərtərəfli nəzərdən keçirilməsi onu deməyə imkan verir ki, logistika yanaşması, ilk növbədə, ardıcıllıq, bütövlük, ümumi xərclərin optimallaşdırılması, layihələndirmənin və layihələrin həyata keçirilməsinin vəhdəti deməkdir. Logistika istehsal və tədavül sferasının bütün mərhələlərini hərtərəfli əhatə etməyə imkan verir. Və bu, sahibkarlıq fəaliyyətinin logistik, logistik sahibkarlıq kimi özünəməxsus ifadəsini əks etdirir.

Sahibkarlıqda logistik yanaşma, məhsulların istehsalı, daşınması, saxlanması və satışının logistikasının istehsal prosesinin ayrılmaz elementlərinə çevrilməsinə kömək edir ki, bu da yuxarıda göstərilən sistemdə səmərəliliyin qiymətləndirilməsi meyarlarını əhəmiyyətli dərəcədə dəyişdirir.

Fənnin öyrənilməsi nəticəsində əldə olunan bilik və bacarıqlar sonrakı dövrlərdə 060405 - "Sənayenin təşkili və idarə edilməsi" ixtisasının istehsalat və xidmət sahələrinin iqtisadiyyatı və idarə edilməsi (nəqliyyat, rabitə, və s. üzrə) ixtisaslaşması üzrə tədris fənlərinin öyrənilməsində, praktiki tətbiqində, kurs işlərinin, bakalavr buraxılış işlərinin və magistr dissertasiyalarının işlənib hazırlanmasında istifadə olunacaqdır.

## 2. Fənnin məzmunu

### 2.1 Fənn üzrə saatların bölüşdürülməsi

060405 - "Sənayenin təşkili və idarə edilməsi" ixtisasının tədris planına uyğun olaraq, "Logistika" fənninin tədrisinə 30 saat həcmində auditoriya saatları nəzərdə tutulmuşdur. Onun 30 saat da mühazirə dərslərinə dərslərinə ayrılmışdır. Tələbələrin sərbəst işi (TSİ) 150 saat təşkil edir. Bura Sİ – sərbəst işin yerinə yetirilməsi və təhvil verilməsi, mühazirələrə, seminarlara, laboratoriya dərslərinə, kollokviumlara hazırlıq daxildir. Tələbələrə fənn üzrə semestr ərzində 1 sərbəst işin (zəruri hallarda sərbəst işlərin sayı artırıla bilər) yerinə yetirilməsi tapşırığı verilir. Semestrin sonunda tələbənin fənn üzrə praktiki məşğələ və kollokviumlar 30, sərbəst tapşırıqlar 10 balla qiymətləndirilir. Fənn üzrə qalan 50 bal imtahanda müəyyən edilir.

Tədris yükünün 1-ci semestrdə yerinə yetirilməsi nəzərdə tutulmuşdur. Fənnin tədrisi imtahan ilə nəticələnir. Təhsil proqramında fənn üçün 6 kredit nəzərdə tutulmuşdur.



Mit CamScanner gescannt

## 2.2. Fənnin mövzular üzrə planı

| № | Mövzunun adı | Dərs yükünün həcmi (saat) | | | |
|---|---|---|---|---|---|
| | | Cəmi | Mühazirə | TSİ | Sİ yerinə yetirilməsi |
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| 1. | Giriş. "Logistika" anlayışı, logistikanın inkişafı amilləri və mərhələləri. | 10 | 2 | 8 | |
| 2. | Logistikanın nəzəri və metodoloji əsasları | 13 | 2 | 8 | 3 |
| 3. | Logistik idarəetmə obyektləri | 13 | 2 | 8 | 3 |
| 4. | Logistikanın funksiyaları | 10 | 2 | 8 | |
| 5. | Logistika menecmenti | 13 | 2 | 8 | 3 |
| 6. | Logistik konsepsiyalar | 13 | 2 | 8 | 3 |
| 7. | Logistik sistemlər | 13 | 2 | 8 | 3 |
| 8. | Logistika xərcləri və onların uçotu | 10 | 2 | 8 | |
| 9. | Satınalma logistikası və ehtiyyatların idarə edilməsi. | 13 | 2 | 8 | 3 |
| 10. | İstehsal logistikası | 13 | 2 | 8 | 3 |
| 11. | Paylama logistikası | 13 | 2 | 8 | 3 |
| 12. | Nəqliyyat logistikası | 23 | 4 | 16 | 3 |
| 13. | Anbar logistikası və taralar | 13 | 2 | 8 | 3 |
| 14. | İnformasiya logistikası | 12 | 2 | 8 | |
| | Cəmi | 180 | 30 | 120 | 30 |

## 2.3 Fənnin dərs növləri üzrə paylanması

### 2.3.1. Mühazirə dərslərinin mövzuları və həcmi

| № | Mövzunun adı və ədəbiyyat şifrəsi | Auditor saatlar | TSİ |
|---|---|---|---|
| 1 | **Giriş. "Logistika" anlayışı, logistikanın inkişafı amilləri və mərhələləri.** Giriş. "Logistika" anlayışı və onun qısa tarixi. Logistikanın inkişafını şərtləndirən amillər. Logistika elminin inkişafı mərhələləri. Logistikanın əsas anlayışları, məqsədi, vəzifələri. İstehsal və mübadilə sferasında logistik sistemlər. Şirkərlərin rəqabətqabiliyyətliliyinin yüksəldilməsində logistika əsas alət kimi. Müasir iqtisadi şəraitdə ümumlogistik problemlər. Azərbaycanda logistikanın inkişafı. | 2 | 2 |
| 2. | **Logistikanın nəzəri və metodoloji əsasları.** Logistikanın paradiqması. Loqistikanın metodologiyası. Logistikada istifadə olunan modellər və onların təsnifatı. Logistikanın vəzifələri və prinsipləri. Logistik strategiya və onun həyata keçirilməsi mexanizmi. Logistikanın göstəricilər sistemi. | 2 | 2 |
| 3. | **Logistik idarəetmə obyektləri.** Material axinları və onlarin parametrləri. Maliyyə axinları. İnformasiya axinları. Xidmət axinları. | 2 | 2 |
| 4. | **Logistikanın funksiyaları.** Logistik əməliyyatlar və funksiyalar. Makro və mikro iqtisadi səviyyədə logistikanin əsas funksiyalari. Logistik missiya və ətraf mühit. | 2 | 2 |



Mit CamScanner gescannt

| | | | |
|---|---|---|---|
| 5. | **Logistika menecmenti.** Logistik fəaliyyətin təşkili. Müəssisənin material axınlarının idarə edilməsinin ənənəvi və logistik sisteminin müqayisəli xarakteristikası. Logistikanın marketinq, maliyyə və istehsalın planlaşdırılması ilə funksional qarşılıqlı əlaqəsi. Logistik strategiya anlayışı, onun işlənməsi proseduru və məqsədləri. Logistikada taktiki və operativ planlaşdırma: məqsədləri, vəzifələri, qərarların qəbulu modeli. Logistikada təhlil və nəzarət. | 2 | 2 |
| 6. | **Logistik konsepsiyalar.** Firmaların logistik konsepsiyası. "Dəqiq və vaxtında" logistik konsepsiyası. Requiremenis / Resourse Plannmg logistik konsepsıyası. «LEAN PRODUCTİON» mikrologistik konsepsiyası. Sair logistik konsepsiyalar. Logistikaya qoyulan əsas tələblər. | 2 | 2 |
| 7. | **Logistik sistemlər.** Logistik sistemlər və onların xasələrı. Logistik sistemin halqaları və zənciri Logistik sistemlərin təsnifatı. Mezologistık sistemlər. «KANBAN» mikrologistik sistemi. Logistik sistemlərin fəaliyyətinin qiymətləndirilməsi. Logistik sistemlərin fəaliyyətində dövlətin proteksionist siyasəti. | 2 | 2 |
| 8. | **Logistika xərcləri və onların uçotu.** Logistika göstəriciləri. Logistika məsrəflərinin təsnifatı, ehtiyatların yaradılması və saxlanması xərclərinin, daşınma və satınalma xərclərinin hesablanması. Logistika xərclərinin uçotunun özünəməxsus xüsusiyyətləri. Loqistik sistemlərdə nəqliyyat xidməti xərclərinin qiymətləndirilməsi. | 2 | 2 |
| 9. | **Tədarük logistikası və ehtiyyatların idarə edilməsi.** Tədarük logistikasının vəzifə və funksiyaları. Tədarük logistikasının fəaliyyət mexanizmi. Ehtiyyatların alınması prosesi və onun əsas mərhələləri. Tədarükçülərin seçilməsi metodları. Tədarükün planlaşdırılması. Tədarükün hüquqi əsasları. Material ehtiyatlarının təsnifatı. Ehtiyatların idarəetmə sistemləri. Sabit sifariş ölçülü idarəetmə sistemi. Sifarişlər arasında sabit vaxt intervalı olan idarəetmə sistemi. Ehtiyatları səmərəli idarəetmənin xüsusiyyətləri. | 2 | 2 |
| 10. | **İstehsal logistikası.** İstehsal logistikasının mahiyyəti, əsas vəzifələri və funksiyaları. İstehsalın təşkilinin logistik konsepsiyası. İstehsal logistikasında material axinlarının idarə edilməsi. Çevik istehsal logistik sistemlərinin yaradılması. Material axinlarının təşkili və idarə edilməsinə qoyulan əsas tələblər. | 2 | 2 |
| 11. | **Paylama logistikası.** Məhsulların fiziki paylanması. Satış və paylama kanalları. Paylama logistikanın mahiyyəti və vəzifələri. Paylayıcı mərkəzlər və onların yerləşmə yerinin seçilməsi. Paylama logistikasında sifarişlərin idarə edilməsi. Paylama logistikasının əsas konsepsiyası. | 2 | 2 |
| 12. | **Nəqliyyat logistikası.** Nəqliyyat logistikası anlayışı və onun vəzifələri Nəqliyyat növlərinin təsnifatı. Daşımaların təsnifatı. Nəqliyyat logistikasının əsas elementlərinin səciyyəvi xüsusiyyətləri. Nəqliyyat müəssisələrində logistik fəaliyyətin təşkili.Nəqliyyat vasitələrinin işinin texniki-istismar göstəriciləri. Nəqliyyat vasitələrinin fəaliyyətinin iqtisadi göstəriciləti (daşımaların maya dəyəri, tariflər). Material ehtiyatlarının hərəkət texnalogiyası.Optimal daşıyıcının, nəqliyyat növünün və nəqliyyat vasitəsinin seçilməsi. Yük daşıma marşurutları. Beynəlxalq nəqliyyat logistikası. | 4 | 4 |
| 13. | **Anbar logistikası və taralar.** Anbar anlayışı, onun vəzifələri və funksiyaları. Anbarların təsnifatı. Logistik anbarların qurluşu və planlaşdırılması. Anbar avadanlıqları. Anbarda logistik proseslərin təşkili və modelləşdirmə prinsipləri. Anbar fəaliyyətinin səmərəlilik göstəriciləri. Anbarların parametrlərinin müəyyənləşdirilməsi. Nəqliyyat - anbar texnologiyalarının növləri.Logistik yük vahidi anlayışı və onun | 2 | 2 |



Mit CamScanner gescannt

| | | | |
|---|---|---|---|
| | ölçüləri.Logistik yük vahidlərinin saxlanılması və daşınmasında taraların əhəmiyyəti. Taraların təsnifatı. Yük vahidlərinin paketləşdirilməsi. Konteynerlər. | | |
| 14. | **İnformasiya logistikası.** İnformasiya logistikası anlayışı. Logistikada informasiya axınları və onların təsnifatı. Logistik informasiya sistemi anlayışı. Daxili və xarici informasiya əlaqələrinin təşkili. Logistik informasiya sisteminin funksional və təşkilati strukturu. Logistik informasiya sistemlərinin (LİS) növləri və onların qurulması prinsipləri. Logistik idarəetmədə müasir informasiya texnologiyaları.LİS tətbiqinin iqtisadi səmərəliliyi. | 2 | 2 |
| | Cəmi | 30 | 30 |

### 2.3.2. Tələbənin sərbəst işinin mövzuları və həcmi

Fənn proqramında nəzərdə tutulmuş mövzuların mənimsənilməsini möhkəmləndirmək məqsədi ilə tələbələr tərəfindən sərbəst işlər (Sİ) yerinə yetirilməlidir. Fənin öyrənilməsi nəticəsində əldə olunan bilik və bacarıqlar Sİ-in hazırlanmasında öz əksini tapmalıdır.

Sərbəst işin həcmi, tərtibatı və qiymətləndirilməsi meyarları sillabusda izah olunur.

Tələbəyə fənn üzrə semestr ərzində 1 sərbəst işin (zəruri hallarda sərbəst işlərin sayı artırıla bilər) yerinə yetirilməsi tapşırığı verilir. Sərbəst işlərin tapşırıqları müxtəlif formada (referat, mühazirə mövzuları üzrə problem və praktiki xarakterli tapşırıqlar, məsələ, misal, sxem və ya modellərin işlənilməsi, fənn üzrə hesablama-cədvəl işləri, alqoritm və proqramların tərtib edilməsi və s.) ola bilər.

Sərbəst işlərin qəbulu fənn üzrə mühazirə dərslərini tədris edən müəllim və yaxud da kafedranın razılığı ilə məşğələ dərslərini tədris edən müəllim tərəfindən auditor saatlardan kənar saatlarda keçirilir.

### 2.3.3. Sərbəst işlərin nümunəvi mövzuları

| № | Mövzunun adı və ədəbiyyatın şifri | TSİ (saat) |
|---|---|---|
| 1. | Şirkərlərin rəqabətqabiliyyətliliyinin yüksəldilməsində logistika əsas alət kimi. | 3 |
| 2. | Tədarükçülərin seçilməsi metodları və tədarükün planlaşdırılması. | 3 |
| 3. | Logistik yük vahidləri və tara. | 3 |
| 4. | Beynəlxalq nəqliyyat logistikası. | 3 |
| 5. | Logistik idarəetmədə müasir informasiya texnologiyaları | 3 |
| 6. | Material axinlarının təşkili və idarə edilməsinə qoyulan əsas tələblər. | 3 |
| 7. | Logistikanın nəqliyyat - ekspedisiya təminatı. | 3 |
| 8. | Nəqliyyat logistikasında marşrutlaşdırma. | 3 |
| 9. | Paylayıcı mərkəzlərin yerləşmə variantının seçilməsi. | 3 |
| 10. | Daxili və xarici informasiya əlaqələrinin təşkili. | 3 |
| | Cəmi | 30 |



Mit CamScanner gescannt

## 3.Fənn üzrə tədris-metodiki materiallar

### 3.1. Əyani və digər tədris-metodiki vəsaitlərin, metodiki materialların siyahısı

| № | Adı | Mövzu planı üzrə mövzunun şifri | Miqdarı |
|---|---|---|---|
| 1 | Təqdimatlar | Bütün mövzular | Elektron |
| 2 | Fənnin öyrənilməsinə dair metodiki göstərişlər | Bütün mövzular | Elektron və çap nüsxəsi |
| 3 | Mühazirələr və əlavə tədris materialları | Bütün mövzular | Elektron və çap nüsxəsi |
| 4 | Kompüter proqramları | Praktik yönümlü mövzular üzrə | - |

### 3.2. Tövsiyə olunan ədəbiyyat

#### 3.2.1. Əsas ədəbiyyat


1. İmanov T.İ. "Logistikanın əsasları: I hissə" Dərslik. Bakı. Təhsil" NPM.2005.
2. İmanov T.İ. "Logistikanın əsasları: I I hissə" Dərslik. Bakı. ÜTəhsil" NPM.2005.
3. Гаджинский А. М. Логистика: учебник для студентов вузов / А. М. Гаджинский. - 20-е изд. - М. : Дашков и К*, 2012. - 484 с.
4. Panaliyev Ə. V. Yük daşımalarının loqistik prinsiplərlə təşkili və idarə edilməsi məsələləri. ADDA - nın elmi əsərləri № 1.Bakı - 2003.
5. 1. Аникин, Б. А. Логистика: учеб. пособие / Б. А. Аникин, Т. А. Родкина. – 3-е изд., пер. с англ. - М.: Проспект, – 2014. – 218 с
6. Черникова, С.А. Основы логистики : учебное пособие. Пермь : ИПЦ «Прокрость», 2018. – 240 с.
7. Бродецкий Г.Л. Экономико-математические методы и модели в логистике. Процедуры оптимизации : учебник / Г. Л. Бродецкий, Д. А. Гусев. - Москва: Академия, 2012. - 285с.
8. Практикум по логистике / А. М. Гаджинский. 8-е изд. — М.: Издательско-торговая корпорация «Дашков и К*, 2012.
9. Николайчук В. Е. Транспортно-складская логистика: учеб. пособие [для студентов вузов] / В. Е. Николайчук. - 4-е изд. - М. : Дашков и К*, 2012. - 452 с.
10. Волгин В. В. Склад: логистика, управление, анализ: [учебное пособие для студентов вузов] / В. В. Волгин. - 10-е изд., перераб. и доп. - М. : Дашков и К*, 2011. - 736 с.
11. Секерин, Владимир Дмитриевич.Логистика: учеб. пособие для студентов вузов, обуч. по специальности "Коммерция (торговое дело)" / В. Д. Секерин. - М. : КНОРУС, 2015. - 240 с.
12. Моисеева, Нина Константиновна.Экономические основы логистики: учебник для студентов вузов / Н. К. Моисеева ; под ред. В. И. Сергеева. - М. : ИНФРА-М, 2014. - 528 с.
13. Стерлигова, Алла Николаевна.Управление запасами в цепях поставок: учебник для студентов, [аспирантов], обуч. по спец. 080506 "Логистика и управление цепями поставок" / А. Н. Стерлигова. - М. : ИНФРА-М, 2014. - 430 с.


#### 3.2.2. Əlavə ədəbiyyat


1. Panaliyev Ə. V. Loqistik sistemlərdə nəqliyyat xidməti xərclərinin qiymətləndirilməsi məsələləri. "Maşınqayırmada intelektual texnoloqiyalar" beynəlxalq elmi-texniki konfransının materialları. Bakı-2016.




Mit CamScanner gescannt

2. Panaliyev Ə. V. Azərbaycanda nəqliyyat sisteminin logistik prinsiplərlə təşkili və idarə edilməsinin səmərəliliyi. «Azərbaycan Beynəlxalq nəqliyyat sistemində: hədəflər və perspektivlər» Beinəlxalq elmi-praktiki konfransın materialları. Bakı -2018.

3. Panaliyev Ə. V. Nəqliyyat xərclərinin idarə edilməsinin təkmilləşdirilməsi. "Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsinin aktual problemləri" mövzusunda Respublika elmi-praktik konfransın materialları.Bakı -2018.

4. Panaliyev Ə. V. Nəqliyyat müəssisələrinin material ehtiyyatları və onların idarə edilməsinin təkmilləşdirilməsi. "Azərbaycanın nəqliyyatı: nailiyyətlər, problemlər və perspektivlər" mövzusunda Respublika Elmi konfransının materialları. Bakı -2019.

5. Panaliyev Ə. V. Azərbaycanın nəqliyyat sistemenində innovasiya proseslərinin mövcud vəziyyəti və strategiyası. "Azərbaycanın innovativ inkişafında mühəndisliyin rolu: hədəflər və perspektivlər" adlı beynəlxalq elmi-praktik konfransın materialları. Bakı-2019.

6. Panaliyev Ə. V. Azərbaycanda rəqəmsal iqtisadiyyatın nəqliyyat sisteminin inkişafına təsiri. "XXI-əsrdə beynəlxalq iqtisadi münasibətlərin prioritet istiqamətləri" mövzusunda Beynəlxalq Elmi - Praktik Konfransı. Bakı. 22 may 2020.

7. Аникин Б. А. Коммерческая логистика: учебник [для студентов вузов] / Б. А. Аникин, А. П. Тяпухин ; Гос. ун-т управления, Оренбург. гос. ун-т. - М. : Проспект, 2012. - 432 с.

8. Дыбская В.В. Логистика складирования: учебник для студентов вузов / В. В. Дыбская. - М. : ИНФРА-М, 2012. - 559 с.

9. Мищенко, Александр Владимирович. Методы управления ограниченными ресурсами в логистике: учеб. пособие для студентов вузов / А. В. Мищенко ; Гос. ун-т - Высшая школа экономики. - М. : ИНФРА-М, 2013. - 184 с.



Mit CamScanner gescannt

Azərbaycan Texniki Universitetinin "Beynəlxalq ticarət, logistika və marketinq" kafedrasının dosenti, i.e.n. Panaliyev Əliheydər Vəliəhəd oğlu tərəfindən 060405 - "Sənayenin təşkili və idarə edilməsi" ixtisasının mağistr pilləsi üçün hazırlanan "Logistika" fənn proqramına

**Rəy**

Məhsulların tələb olunan miqdarda, tələb olunan keyfiyyətlərlə, sərfəli qiymətə, vaxtında və müəyyən edilmiş yerə, istehlakçıya çatdırılması prosesləri logistik prinsiplər və metodlarla idarə olunur. Logistika müəssisə və təşkilatların və təsərrüfat fəaliyyətinin çoxsaylı funksional sahələrini əhatə edir. Logistika material axınlarının idarə edilməsi sisteminin yaradılmasını tələb edir. Logistikanın iqtisadi sistemə verdiyi ən böyük töhvə, iqtisadi səmərə, hər şeydən əvvəl material resursları üzrə ehtiyatların həcminin və material resurslarının istehlakçılara çatdırılması vaxtının azaldılmasından ibarətdir. Bu baxımdan "Sənayenin təşkili və idarə edilməsi" istiqaməti üzrə hazırlanan mütəxəssislər gələcəkdə təcrübi işlərində material axınların səmərəli təşkili və idarə edilməsi prosesində qarşılarına çıxan problemlərin düzgün həlli vərdişini əldə etmək üçün "Logistika" elmini dərindən öyrənməlidilər.

Fənn proqramı giriş hissəsindən, fənnin tədrisində nəzərdə tutulan ümumi qaydalardan, fənnin məzmunundan, fənn üzrə nəzərdə tutulan tədris - metodiki materialların siyahısından ibarətdir.

Proqramın ümumi qaydalar hissəsində fənnin tədrisinin məqsədi, əsas vəzifəsi, fənn üzrə bilik və bacarıqlara olan tələblər, fənnin diqər fənlərlə əlaqəsi düzgün verilmişdir. Fənnin məzmunu hissəsində saatların bölgüsü, mövzular üzrə planı, dərs növləri üzrə paylanması və həcmi geniş şərh edilir.

Proqram tərtib edilərkən nəqliyyat - logistik sistemlərin xüsusiyyərləri nəzərə alınmış, proqramın planında nəzərdə tutulan mühazirə və məşğələ dərslərinin mövzularının ardıcıllığı, onlara ayrılan saatların miqdarı elmi - metodik cəhətdən düzgündür və tədris planına tam uyğundur.

Azərbaycan Texniki Universitetinin "Beynəlxalq ticarət, logistika və marketinq" kafedrasının dosenti, iqtisad elmləri namizədi Əliheydər Vəliəhəd oğlu Panaliyev tərəfindən 060405 - "Sənayenin təşkili və idarə edilməsi" ixtisasının mağistr pilləsi üçün hazırlanan "Logistika" fənn proqramı ali təhsilin magistr pilləsində tədris proqramlarına qoyulan tələblərə tam cavab verir və nəşr olunmağa layiqdir.

Azərbaycan Texniki Universitetin
"Beynəlxalq ticarət, logistika və
marketinq" kafedrasının müdiri,
iqtisad elmləri doktoru, professor　　　　Quliyev Rüfət Atakişi oğlu

İmza [signature] təsdiq edirəm
Azərbaycan Texniki
Universitetinin Elmi Katibi
V. Rzayeva 04.04.1?

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ AZƏRBAYCAN TEXNİKİ UNİVERSİTETİ

Mit CamScanner gescannt

Azərbaycan Texniki Universitetinin "Beynəlxalq ticarət, logistika və marketinq" kafedrasının dosenti, i.e.n. Panaliyev Əliheydər Vəliəhəd oğlu tərəfindən 060405 - "Sənayenin təşkili və idarə edilməsi" ixtisasının mağistr pilləsi üçün hazırlanan "Logistika" fənn proqramına

**Rəy**

Logistika təsərrüfat fəaliyyətinin inkişafına təsir edən müsbət amil olmaqla, elmi-texniki tərəqqinin inkişafında mühüm istiqamətlərdən biridir. Logistikanın fəaliyyətinə sistemli yanaşma logistika prinsipləri və qaydaları əsasında material və digər resursların hərəkəti prosesinin çox meyarlı optimallaşdırılmasını nəzərdə tutur.

Müasir bazar münasibətləri sisteminin mürəkkəbliyi, məhsulların bölgüsü prosesinə keyfiyyətcə yüksək tələbkarlıq, çevik istehsal sistemlərinin yaradılması, məhsulların daşınması, saxlanması, zəruri ehtiyatların yaradılması və onlara nəzarət, tədarük prosesinin planlaşdırılması və təşkili mexanizmi, servis xidmətinin təşkili və s. logistikanın bir elmi sahə kimi tətbiqini zəruri edən ən mühüm amillərdir. Bu baxımdan "Sənayenin təşkili və idarə edilməsi" istiqaməti üzrə hazırlanan mütəxəssislər "Logistika" elmini dərindən öyrənməlidilər.

Fənn proqramı giriş hissəsindən, fənnin tədrisində nəzərdə tutulan ümumi qaydalardan, fənnin məzmunundan, fənn üzrə nəzərdə tutulan tədris - metodiki materiallardan ibarətdir. Təqdim olunmuş proqramda "Logistika" fənninin əsas mövzuları geniş şərh edilir.

Proqramda fənnin tədrisinin məqsədi, əsas vəzifəsi, fənn üzrə bilik və bacarıqlara olan tələblər, fənnin digər elmlərlə əlaqəsi, saatların bölgüsü, mövzular üzrə planı, dərs növləri üzrə paylanması düzgün verilmişdir.

Proqram tərtib edilərkən sahənin səciyyəvi xüsusiyyərləri nəzərə alınmış, proqramın mövzular planında nəzərdə tutulan mühazirə və məşğələ dərslərinin mövzularının ardıcıllığı, onlara ayrılan saatların miqdarı elmi - metodik cəhətdən düzgündür və tədris planına tam uyğundur.

Azərbaycan Texniki Universitetinin "Beynəlxalq ticarət, logistika və marketinq" kafedrasının dosenti, iqtisad elmləri namizədi Əliheydər Vəliəhəd oğlu Panaliyev tərəfindən 060405 - "Sənayenin təşkili və idarə edilməsi" ixtisasının mağistr pilləsi üçün hazırlanan "Logistika" fənn proqramı ali təhsilin mağistr pilləsində tədris proqramlarına qoyulan tələblərə tam cavab verir və nəşr olunmağa layiqdir.

AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ
UNEC
PUBLİK HÜQUQİ ŞƏXS
ELMİ KATİB

Azərbaycan Dövlət İqtisad Universitetinin "Sosial inkişaf iqtisadiyyatı və qiymətləndirmə" kafedrasının dosenti, iqtisad elmləri namizədi ---------------- Sadıqov Bulud Cahangir oğlu

İmzanı təsdiq edirəm!

Mit CamScanner gescannt

Azərbaycan Texniki Universitetinin "Beynəlxalq ticarət, logistika və marketinq" kafedrasının dosenti, i.e.n. Panaliyev Əliheydər Vəliəhəd oğlu tərəfindən 060405 - "Sənayenin təşkili və idarə edilməsi" ixtisasının mağistr pilləsi üçün hazırlanan hazırlanan "Logistika" fənn proqramına

**Rəy**

Müasir dövrdə logistika müəssisələrin rəqabət üstünlüklərinin yaradılmasında əsas alət olmaqla iqtisadiyyatın müxtəlif sahələri ilə əlaqəlidir və yüksək keyfiyyətli logistika xidmətlərinin göstərilməsi sayəsində iqtisadi sistemin səmərəli fəaliyyətinə nail olmaq olur.

Bazar iqtisadiyyatı şəraitində rəqabət mübarizəsinin getdikcə kəskinləşdiyi bir mərhələdə hər bir təsərrüfat subyekti material, maliyyə, informasiya, kadr və digər resursların həm istehsal, həm də tədavül sferasında səmərəli idarə edilməsini həyata keçirmək üçün elm və təcrübi fəaliyyət sferası hesab edilən logistikaya böyük ehtiyac duyulur. Material axınlarının ilkin mənbədən son istehlakçıya kimi hərəkətinin səmərəli şəkildə təşkil etmək və idarə etmək şərtlərinin öyrənilməsi loğistika kimi formalaşmış bir elmin əsasını təşkil edir. Bu baxımdan "Logistika" elmininin öyrənilməsi müasir dövrün tələbidir və "Sənayenin təşkili və idarə edilməsi" istiqaməti üzrə hazırlanan mütəxəssislər gələcəkdə təcrübi işləri yerinə yetirmək üçün bu fənni dərindən mənimsəməlidilər.

Fənn proqramı giriş hissəsindən, fənnin tədrisində nəzərdə tutulan ümumi qaydalardan, fənnin məzmunundan, fənn üzrə nəzərdə tutulan tədris metodiki materiallardan ibarətdir.

Təqdim olunmuş proqramda hazırlanan "Logistika" elminin əsas mövzuları geniş şərh edilir.

Proqramın ümumi qaydalar hissəsində fənnin tədrisinin məqsədi, əsas vəzifəsi, fənn üzrə bilik və bacarıqlara olan tələblər düzgün verilmişdir.

Proqram tərtib edilərkən nəqliyyat -logistik sistemlərin xüsusiyyərləri nəzərə alınmış, proqramın mövzular planında nəzərdə tutulan mühazirə və məşğələ dərslərinin mövzularının ardıcıllığı onlara ayrılan saatların miqdarı elmi - metodik cəhətdən düzgündür və tədris planına tam uyğundur.

Azərbaycan Texniki Universitetinin "Beynəlxalq ticarət, logistika və marketinq" kafedrasının dosenti, iqtisad elmləri namizədi Əliheydər Vəliəhəd oğlu Panaliyev tərəfindən 060405 - "Sənayenin təşkili və idarə edilməsi" ixtisasının mağistr pilləsi üçün hazırlanan "Logistika" fənn proqramı ali təhsilin magistr pilləsində tədris proqramlarına qoyulan tələblərə tam cavab verir və nəşr olunmağa layiqdir.

Azərbaycan Memarlıq və İnşaat
Universitetinin "İqtisadi nəzəriyyə və
marketinq" kafedrasının müdiri,
iqtisad üzrə fəlsəfə doktoru ____________ **Ağayev Asəf Mirzə oğlu**

İNSAN RESURSLARI ŞÖBƏSİ
Azərbaycan Respublikası

Mit CamScanner gescannt

**AzTU-nun "Beynəlxalq ticarət, logistika və marketinq" kafedrasının 03.06.2022-ci il tarixli iclasının 9 saylı protokolundan**

**ÇIXARIŞ**

Kafedranın əməkdaşları: 13 nəfər

İclasda iştirak etdilər: 9 nəfər

İclasda iştirak etmədi: 4 nəfər

**Gündəlikdə duran məsələ:** Kafedranın dosenti Əliheydər Vəliəhəd oğlu Panaliyev MİFÜ-2701 "Logistika" magistr səviyyəsi üçün məcburi fənn proqramının müzakirə və çapa tövsiyyə olunması.

**Dinlənildi:** Kafedranın müdiri prof. R.A.Quliyev magistr səviyyəsində fənn proqramını kafedranın əməkdaşlarına təqdim etdi və onlardan proqramlara münasibət bildirməsini xahiş etdi.

**Çıxış etdilər:** İlk öncə fənn proqram müəllifi dos. Ə. V. Panaliyev tərtib etdiyi proqramı əhatə etdiyi mövzuların aktuallığı haqda bəhs etdi və proqrama verilən müsbət rəyləri oxudu. Daha sonra kafedranın dosenti S.Əhmədova, dosenti N.Namazova, i.f.d. L.Neymətova proqram haqda öz müsbət fikirlərini söylədilər və çapa tövsiyyə etdilər.

Təklif açıq səsvermədə yekdilliklə qəbul olundu.

**Qərara aləındı:** Kafedranın dosenti Əliheydər Vəliəhəd oğlu Panaliyev MİFÜ-2701 "Logistika" magistr səviyyəsi üçün məcburi fənn proqramı müzakirə və çapa tövsiyyə edilsin.

**Sədr:** **prof. R.A.Quliyev**

**Katib:** **b/m M.N.Qasımova**

ÜMUMİ ŞÖBƏ

Mit CamScanner gescannt

**Azərbaycan Texniki Universitetinin**
**"İqtisadiyyat və idarəetmə" fakültəsinin Metodiki Komissiyasının**
**15 iyun 2023-ci il tarixli iclasının 6 saylı protokolundan**

## ÇIXARIŞ

*Fakültə metodik komissiyasının üzvləri – 6 nəfər*
*İştirak etdi – 6*
*İştirak etmədi – 0*

**Gündəlikdə duran məsələ:** "Beynəlxalq ticarət, logistika və marketinq" kafedrasının dosenti, i.e.n. Ə.V.Panəliyev tərəfindən təqdim edilən MİFÜ-2701 - "Logistika" fənn proqramının çapa tövsiyə olunması.

**Dinlənildi:** Fakültə Metodiki Komissiyaının sədri fil.ü.f.d., dos. L.Z.Piriyeva məlumat verərək bildirdi ki, təqdim olunan fənn proqramı magistratura səviyyəsi 060405 – "Sənayenin təşkili və idarəedilməsi" ixtisası üzrə Azərbaycan Respublikasının Təhsil Nazirliyinin 30.09.2016-cı il tarixli, 640 saylı əmri təsdiq olunmuş Təhsil Proqramının və Az.TU Elmi Şurasının 21 may 2020-ci il tarixli, 8 saylı protokolu ilə təsdiq olunmuş Tədris planının tələblərinə uyğun hazırlanmışdır. MİFÜ-2701 - "Logistika" fənni Az.TU Elmi Şurasının qərarı ilə təsdiq edilmiş, tədris planına ixtisas fənni statusunda - 6 kredit (180 saat: 30 auditoriya saatı) miqdarı ilə daxil edilmişdir. Fənn proqramı "İqtisadiyyat və idarəetmə" fakültəsinin nəzdindəki "Beynəlxalq ticarət, logistika və marketinq" kafedrasında müzakirə edilmiş və təsdiq üçün fakültə Metodiki Komissiyasına təqdim edilmişdir. Sədr fənn proqramının metodiki cəhətdən qəbul edilmiş tələblərə uyğun gəldiyini nəzərə alıb, komissiya üzvlərindən gündəlikdəki məsələyə münasibət bildirməsini xahiş etdi.

**Çıxış etdilər**: prof. İ.Aslanzadə, b/m. L.Neymətova çıxış etdilər. B/m.L.Neymətova "Logistika" fənn proqramının üstünlüyündən danışarkən qeyd etdi ki, fənnin tədrisinin əsas vəsifəsi 60405 – "Sənayenin təşkili və idarəedilməsi" ixtisası üzrə təhsil alan bakalavrlarda firma daxili planlaşdırma barədə davamlı biliklərin formalaşdırılması üzrə lazım olannəzəri, təcrübi bilik və bacarıqların aşılanmasından ibarətdir. Fənn proqramının strukturu və mövzuların məntiqi ardıcıllığı keyfiyyətli tədris prosesi təşkil etməyə imkan verir. Proqram muasir dövrün tələblərinə uyğundur. Mən hesab edirəm ki, fənn proqramını biz çapa tövsiyə edə bilərik.

Təklif açıq səsvermədə yekdilliklə qəbul olundu.

**Qərara alındı**: "Beynəlxalq ticarət, logistika və marketinq" kafedrasının dosenti, i.e.n. Ə.V.Panəliyev tərəfindən təqdim edilən MİFÜ-2701-"Logistika" fənn proqramının elmi-praktiki əhəmiyyətini, metodiki cəhətdən qəbul edilmiş tələblərə uyğunluğunu nəzərə alaraq çapa tövsiyə olunsun və və "İqtisadiyyat və idarəetmə" fakültəsinin Elmi Şurasına müzakirə üçün təqdim edilsin.

**Sədr** **dos. L.Z.Piriyeva**

**Katib** **ass. N.N.Baxışova**

Mit CamScanner gescannt

**Azərbaycan Texniki Universitetinin**
**"İqtisadiyyat və idarəetmə" Fakültə Elmi Şurasının**
**25 iyun 2023-cü il tarixli iclasının**
**10 saylı protokolundan**

**Ç I X A R I Ş**

*Fakultə elmi şurasının üzvləri – 23 nəfər*
*İştirak etdi – 20 nəfər*
*İştirak etmədi – 3 nəfər*

**Gündəlikdə duran məsələ:** Beynəlxalq ticarət, logistika və marketinq" kafedrasının dosenti Əliheydər Vəliəhəd oğlu Panaliyev tərəfindən təqdim edilən MİFÜ-2701 - "Logistika" fənn proqramının çapa tövsiyə olunması.

**Dinlənildi:** Şuranın sədri dos. F.Q.Musayeva çıxış edərək, "Beynəlxalq ticarət, logistika və marketinq" kafedrasının dosenti Ə.V.Panaliyevin tərtib etdiyi 060405 – "Sənayenin təşkili və idarəedilməsi" xtisası üzrə magistratura səviyyəsi üçün hazırlanan - "Logistika"-MİFÜ-2701 fənn proqramının dərc olunması üçün təqdim edilən sənədlər, proqrama əlavə olunan rəylər haqqında məlumat verdi. MİFÜ-2701 - "Logistika" fənni AzTU Elmi Şurasının qərarı ilə təsdiq edilmiş, tədris planına ixtisas fənni statusunda - 6 kredit (180 saat: 30 auditoriya saatı) miqdarı ilə daxil edilmişdir. Fənn proqramı "İqtisadiyyat və idarəetmə" fakültəsinin nəzdindəki Metodik Komissiyada müzakirə edilmiş və təsdiq üçün fakültə Elmi Şurasına təqdim edilmişdir.

Sədr, dos. F.Q.Musayeva şura üzvlərini təqdim edilmiş sənədlərlə tanış edib, fənn proqramının metodiki cəhətdən qəbul edilmiş tələblərə uyğun gəldiyini qeyd edərək, şura üzvlərindən gündəlikdəki məsələyə münasibət bildirməsini xahiş etdi.

**Çıxış etdilər**: dos A.S.Süleymanov, dos.S.R.Əhmədova, b/m. L.T.Neymətova Təklif açıq səsvermədə yekdilliklə qəbul olundu.

**Qərara alındı**: "Beynəlxalq ticarət, logistika və marketinq" kafedrasının dosenti Ə.V.Panaliyev tərəfindən təqdim edilən MİFÜ-2701 - "Logistika" fənn proqramının elmi-praktiki əhəmiyyətini, metodiki cəhətdən qəbul edilmiş tələblərə uyğunluğunu nəzərə alaraq çapa tövsiyə olunsun və AzTU Elmi-Metodik Şurasına müzakirə üçün təqdim edilsin.

**Sədr:** **dos. F.Q.Musayeva**

**Katib:** **b.m X.H.Əliyeva**

Mit CamScanner gescannt